AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

"2019-2023 Dövlət Proqramı"
İdarəetmə Qrupu

# TƏHSİL İXTİSASI ÜZRƏ MAGİSTRATURADA BEYNƏLXALQ İKİLİ DİPLOM PROQRAMI




Xarici tərəfdaş universitet/ölkə:
**CORC VAŞİNQTON UNİVERSİTETİ (ABŞ)**

Yerli tərəfdaş universitet:
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ (Azərbaycan)**

**Tədris ili:** 2020/2021

| | | |
|---|---|---|
| **Hədəf:** | → | Ən qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından yararlanaraq, təhsilin idarəedilməsi sahəsində Azərbaycanda yeni nəsil mütəxəssislər yetişdirmək, bu sahədə Azərbaycan ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərini beynəlxalq ikili diplom proqramları ilə müasirləşdirmək |
| **Təhsil səviyyəsi:** | → | **Magistratura** |
| **İxtisas:** | → | **CVU: Təhsil və insan inkişafı: Təhsil siyasəti və liderlik[1];**<br>**ADPU: Menecment (təhsilin təşkili və idarəolunması)[2].** |
| **Proqram məzunları sahib olacaq:** | → | - Təhsil sahəsində siyasi təhlil və inkişaf proqramlarını hazırlamaq;<br>- Mövcud layihələri tədqiqat alətləri ilə qiymətləndirmək;<br>- Beynəlxalq təcrübəni öyrənmək. |
| **İlkin kvota:** | → | **25 nəfər** |
| **Tədris dili:** | → | **ingilis dili** |
| **Müddət:** | → | **2 il** |
| **Proqram üzrə əsas sahələr:** | → | Liderlik və menecment, tədqiqat, beynəlxalq təhsil, siyasi təhlil və inkişaf proqramları. |
| **Təhsilalanların maliyyələşdirilən xərcləri:** | → | Təhsilalanların maliyyələşdirilən xərcləri aşağıdakılardan ibarətdir:<br>- təhsil haqqı;<br>- qeydiyyat xərci;<br>- tədris materialları və elektron informasiya resurslarına çıxış xərcləri. |

[1] Corc Vaşinqton Universiteti tərəfindən təqdim ediləcək diplomda qeyd ediləcək ixtisas adı;
[2] Azərbaycan Dövlət Pedaqoji Universitet tərəfindən təqdim ediləcək diplomda qeyd ediləcək ixtisas adı.

<table>
<tr><td>İlkin seçim meyarları:</td><td>→</td><td>- Tələbələrin seçimi Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən ali təhsil müəssisələrinə keçirilən qəbul imtahanlarının (magistratura) nəticələri əsasında tərəflər aparırlar;<br>- Müsabiqədə bakalavriat səviyyəsinin “Təhsil ixtisasları” və “İqtisadiyyat və idarəetmə ixtisasları” qruplarında yer alan ixtisaslardan birini bitirən şəxslər iştirak edə bilərlər.</td></tr>
<tr><td></td><td></td><td></td></tr>
<tr><td>Son müraciət tarixi:</td><td>→</td><td>20.05.2020</td></tr>
<tr><td></td><td></td><td></td></tr>
<tr><td>Müraciət proseduru və tələb olunan sənədlər:</td><td>→</td><td>• 2020/21-ci tədris ili üçün DİM tərəfindən ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına qəbul olmaq üçün keçirilən imtahanın nəticəsində həmin qurum tərəfindən müəyyən edilmiş keçid balını toplamaq;<br>• Aşağıda göstərilən sənədləri müvafiq qaydada aidiyyəti üzrə təqdim etmək;<br>- CV;<br>- Şəxsiyyət vəsiqəsinin surəti;<br>- Motivasiya məktubu: 250-500 sözlük məktubda Corc Vaşinqton Universiteti ilə birgə təşkil edilən bu beynəlxalq ikili diplom proqramında magistr təhsili almaqda məqsədiniz, akademik hədəfləriniz, tədqiqat maraqlarınız və karyera planlarınız təsvir edilməlidir. Bununla yanaşı, müraciət formasında qeyd etmədiyiniz bakalavriat təhsili dövründə peşəkar və sosial fəailiyyətləriniz və bu kimi digər əhəmiyyətli naliyyətlərinizi göstərilməlidir.<br>- İngilis dili sertifikatları: IELTS 6.5 (hər bənd 6.0 və ya daha çox), TOEFL 80 bal (hər bir bənd üzrə 20 bal və daha çox) və Duolingo 110 bal;<br>- Bakalavriat diplomunun və ona əlavənin ingilis dilində notariat qaydada tərcümə və təsdiq edilmiş surəti (hazırda sonuncu ildə təhsilalanlar təhsil müəssisəsi tərəfindən verilmiş müvafiq arayış və ən son tarixli transkript/fənlər üzrə akademik göstəricilər );<br>- 2 tövsiyə məktubu;<br>- Müraciət forması.<br><br>Qeyd 1: Müvafiq meyarlar üzrə sənədlərini təqdim etmiş şəxslər sırasından akademik göstəricilər (magistratura DİM balı, ingilis dili sertifikarı üzrə bal və bakalavriat səviyyəsi üzrə ümumi orta müvəffəqiyyət göstəricisi) üzrə ilk 75 nəfərin namizədliyi növbəti mərhələ üçün təqdim ediləcəkdir;<br>Qeyd 2: Proqrama qeydiyyat zamanı namizədin iş nömrəsi (magistratura imtahanı) və şəxsi kabinetin istifadəçi adını (FİN) təqdim etməli olacaqdır.</td></tr>
<tr><td></td><td></td><td></td></tr>
<tr><td>Sənədlərin təqdim edilməsi və FAQ:</td><td>→</td><td>Proqramda iştirakla bağlı müvafiq müraciət tələb olunan sənədlərlə birgə elektron poçtla aspu_gwu@adm.dp.edu.az ünvanına göndərilməlidir.<br>“2019-2023 Dövlət Proqramı” ilə bağlı suallar olduğu təqdirdə, isə dpinfo@edu.gov.az ünvanına göndərilməlidir.<br>FAQ/MVS-lə keçiddən tanış ola bilərsiniz.<br>Telefon: (012) 465 81 53, (012) 493 23 84</td></tr>
</table>